**Dövlət Statistika Komitəsi nümayəndələrinin regionlarda keçirilmiş təlimatı seminarlarda iştirakı haqqında**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Aparatın Sənaye və tikinti statistikası şöbəsi müdirinin müavinləri Hacıbala Dadaşov və Rauf Qurbanov 18-21 sentyabr 2012-ci il tarixlərində Gəncə, Şəki, Şamaxı, Quba, Kürdəmir, Masallı Rayon (Şəhər) Statistika İdarələrində təşkil edilmiş seminarlarda iştirak etmişlər. Seminarların məqsədi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Avropa Komissiyasının Azərbaycan Respublikasına Energetika Sahəsində İslahatlara Dəstək Proqramı haqqında" 139/t nömrəli, 15 avqust 2012-ci il tarixli əmrinə uyğun olaraq "Fərdi sahibkarlar tərəfindən enerji növlərinin istehsalı və istehlakı haqqında" seçmə statistikası müşahidəsinin keyfiyyətlə keçirilməsini təmin etməkdən ibarət olmuşdur. Seminarlarda Gəncə, Mingəçevir, Şirvan, Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz, Ağsu, İsmayıllı, Qobustan, Şamaxı, Ağdam, Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Füzuli, Göyçay, Hacıqabul, İmişli, Saatlı, Sabirabad, Tərtər, Ucar, Yevlax, Zərdab, Kürdəmir, Xaçmaz, Xızı, Qusar, Siyəzən, Şabran, Quba, Astara, Biləsuvar, Cəlilabad, Lerik, Lənkəran, Neftçala, Salyan, Yardımlı və Masallı Rayon (Şəhər) Statistika İdarələrinin nümayəndələri iştirak etmişrlər.



Keçirilən seminarlarda iştirakçılara "Fərdi sahibkarlar tərəfindən enerji növlərinin istehsalı və istehlakı haqqında" seçmə statistikası müşahidəsinin aparılmasının səbəbləri, məqsədi, bilavasitə müşahidənin sorğu anketlərinin doldurulması ilə bağlı göstərişlər və tövsiyələr verilmişdir. Seminarlar nümayəndələrin fəal iştirakı ilə interaktiv şəkildə aparılmış, müşahidələrin gedişində yarana biləcək problemlər birgə müzakirə olunmuş və nümayəndələr tərəfindən mövzu ilə bağlı verilən bütün suallar cavablandırılmışdır.

Seminarların təşkili ilə bağlı qeyd olunmalıdır ki, Quba RSİ-də seminarın gedişini işıqlandırmaq üçün yerli qəzetdən müxbir dəvət olunmuş, Kürdəmir RSİ-də isə keçirilmiş seminarda RİH-nin başçısının müavini cənab Arzu Şahbazov iştirak etmişdir.